# TƏMİZLƏNMƏ VƏ TƏRBİYƏ

(at-Tasfiya ua-ttarbiya)

**və müsəlmanların buna ehtiyacı**

Şeyx
Muhammad Nasıruddin əl-Albani

(Allah ona rəhmət etsin)

*Birinci nəşr*

Rus dilindən tərcümə
Abu İmran əs-Sələfinindir

# Nəşriyyatçının müqəddiməsi[1]

Həmd ancaq Allaha ᴍəxsusdur, ona həmd edir, ondan yardım və məğfirət diləyirik. Nəfslərimizin şərindən və pis əməllərimizdən Allaha sığınırıq. Allah kimi hidayətə yönəltmişsə, onu heç kəs azdıra bilməz, kimi də azdırmışsa, heç kəs onu hidayətə yönəldə bilməz. Mən şəhadət edirəm ki, Allahdan başqa ibadətə layiq məbud yoxdur, O, təkdir, şəriki də yoxdur və şəhadət edirəm ki, Muhəmməd ﷺ Onun qulu və elçisidir.

Bundan sonra:

*“**Təmizlənmə və tərbiyə, və müsəlmanların buna ehtiyacı**”* adlı bu risalə öz əsasında, otuz il bundan öncə (1390 il) Amman şəhərinin (İordaniya) şəriət elmləri institutunda, böyük alim-muhəddis[2] şeyx Muhəmməd Nasıruddin əl-Albaninin,[3] Allah ona rəhmət etsin, oxuduğu muhazirədir. Bu muhazirədə şeyx hər bir müsəlmanın tutması vacib olan yolu açıqlamışdır. Bu mühazirənin əsli iki sözdən ibarətdir – “təmizlənmə” və “tərbiyə”. Şeyx öz həyatını məhz islam əqidəsinin, ona əsrlər boyu daxil edilmiş müxtəlif zəlalətlərin çirkinliyindən, bidətlərdən, xurafatlardan və şirkdən təmizlənməsi yoluna həsr etmişdir. O həmçinin Sünnənin təmizlənməsilə də məşğul olmuşdur. O rəvayətlərin səhih, zəif və ya uydurma olduqunu tədqiq etmiş və bununla Sünnəyə aid olmayan rəvayətləri

---

[1] Bu kitabın orijinalını “əl-Maktaba əl-İslamiyya” nəşriyyatı çapa buraxmışdır.

[2] Muhəddis – hədis (peyğəmbər ﴾s.a.v) və onun səhabələri haqda rəvayətlər ilə) elmi ilə məşğul olan, hədislərdən yaxşı anlayışı olan, hədislərin bir çox rəvayətlərini bilən və hədis rəvayətçilərindən ətraflı elmi olan və hədislərdən müstəqil olaraq şəriət qayda-qanunlarını çıxarmaqa malik olan alimdir.

[3] Şeyx Muhammad Nasıruddin ibn Nuh ibn Adam Nacati əl-Albani - əsrimizin böyük alimlərindəndir. O 1333 h.i. (1914) Şkoder (Albaniyanın keçmiş paytaxtı) şəhərində anadan olmuşdur.

Bu insanın fəziləti haqqında danışmaq üçün onun zamanında yaşayan alimlərin onun haqqında həyatda və ölümündən sonra dediklərini qeyd etmək kifayətdir.

Şeyx Muhammad ibn İbrahim, İbn Bazın müəllimi, şeyx əl-Albani haqqında demişdir: *“O sünnə əhlindəndir, haqqın tərəfdarı və zəlalət əhlininin əleyhdarlarındandır”*. Bax. “Muhaddisul-asri nasıru-Ssunna”, 32.

Şeyx İbn Baz onun haqqında demişdir: *“Mən,bizim zamanımızda səmalar altinda şeyx əl-Albanidən daha elmli insan tanımıram”*. Bax “Kaukaba min aimatil-huada”, 227.

Bir dəfə şeyx İbn Baza ***“Həqiqətən Allah bu ümmətə hər yüz ildən bir, bu dini dirçəldən alim göndərəcək”*** hədisini oxuyaraq soruşdular: “Bu əsrdə dini dirçəldən kimdir?” O dedi: *“Şeyx Muhammad Nasıruddin əl-Albanidir, bu mənim rəyimdir”*.Bax “Macalə əl-asalə al-Urduniyya”, 76.

Şeyx İbn Useymin demişdir: *“Şeyx əl-Albani sünnə əhlindəndir, sünnənin muhafizəçilərindəndir, hədis elminin imamı, və zamanımızda onun tayı-bərabəri olan insan tanımırıq. Lakin bir insanın istedadını gördükdə bəzi insanların qəlblərinə kin daxil olur, və onlar həmin insana dil uzadırlar. Bu əməl, möminlərə böyük və kiçik miqdarda verilən sədəqələrə görə, sahabilərə istehza edən munafiqlərin əməllərinə bənzəir. Biz bu insanı onun yazdığı kitabları ilə tanıyırıq. Mən onu onun keçirdiyi məclisləri ilə də tanıyıram. O əqidədə düz yolu (mənhəci) tutan sələfdir*”*. Bax “Tascilətu macalis əl-huda” 4-cü kasset.

* Sələf – söz, əməl və əqidədə peyğəmbər ﷺ-in, onun səhabələrinin və onların ardıcıllarının (təbiinlərin) yoluna tabe olan kimsədir.

Şeyx AbdulƏziz Ali Şeyx və şeyx Salih əl-Fauzan onun haqqında demişlər: *“Bizim zamanımızda sünnənin muhafizəçisidir!”* Bax. “Muhaddisul-asri nasıru-Ssunna”, 33.

Şeyx Abdullah ibn AbduRəhman əl-Bassam demişdir: *“Şeyx əl-Albani zamanımızın böyük imamlarındandır. O sünnəyə qulluq etməkdə çalışqan və bu yolda özündən və mal-dövlətindən keçən kimsələrdən idi”*. Bax “Kaşfu-ttalbis”, 76.

Şeyx AbdulMuhsin əl-Abbad demişdir: *“Şeyx əl-Albani, Allah ona rəhmət etsin, öz ömrünü Sünnəyə qulluq etməyə, kitab yazmağa, Allahın dininə dəvət etməyə, sələf dəvətinin zəfərinə və bidətlərə qarşı mübarizəyə həsr edən böyük alimlərin sırasındadır. O Allah rəulunun ﷺ Sünnəsinin muhafizəçilərindən idi və belə alimin vəfatı müsəlmanlar üçün böyük bir itkidir. Allah ona etdiyi əməllərini daha xeyrli şeylə əvəz etsin və onu Cənnət əhlindən etsin”*. Bax “Hayatul-Albani”, 7.

Şeyx Abdullah əl-Ubaylən demişdir: *“Mən və bütün müsəlmanlar imam, böyük alim, muhəddis, zahid, şeyx Muhammad Nasıruddin əl-Albaninin vəfatına kədərlənirik. Onun fəzilətləri haqqında danışmağa söz tapılmaz, lakin onun hətta sələf dəvətini dirçəltməkdən başqa bir xidməti olmasaydı, bu özüdə əlçatmaz bir xidmətdir. Lakin bununla bərabər o sələf yoluna dəvət edən böyük xatib idi. O Sünnə əsasında yaşamış və insanları bidətlərdən çəkindirən kimsə idi. Bizim şeyx Abdullah ad-Duayş deyirdi: “Neçə əsrlərdir ki biz, hədis tədqiqatında şeyx Nasırin tayı-bərabəri olan bir alim görmürdük. İmam as-Suyutının ölümündən sonra günümüzə qədər, şeyx əl-Albani kimi hədis elmini bu qədər ətraflı və dəqiq öyrənmiş insan tanımırıq”*. Bax “Hayatul-Albani”, 9.

Şeyx Salih Ali Şeyx demişdir: *“Şübhəsiz ki qörkəmli alim Muhammad Nasıruddin əl-Albaninin vəfatı böyük bir kədərdir, çünki o islam ümmətinin alimlərindən, muhaddislərin muhaddisi idi. Allah onun vasitəsi ilə bu dini muhafizə edib, Sünnəni yayırdı”*. Bax “Kaukaba min aimatil-huada”, 252.

Peyğəmbər ﴾s.a.v) həqiqəti demişdir: ***“Həqiqətən Allah Öz qullarını məhrum edərək elmi qaldırmır, lakin O elm əhlini (dünyadan) alaraq elmi qaldırır”***. əl-Buxari, 100; Muslim, 3/737.

Sələflər deyərdi: *“Alimin ölümü fəlakətdir, hətta bir qövmün həlak olması bir alimin ölümündən əhəmiyyətcə daha azdır”*.

Şeyx əl-Albani şənbə günü cumada as-saniya ayının 22 1420 h.i. (2 oktyabr 1999 ildə) 87 yaşında vəfat etmişdir. Allah ona rəhmət etsin, onun günahlarını bağışlasın və onu Cənnətlə sevindirsin!

ayırmışdır. Həmçinin o fikh elmini də nəzərdən keçirmiş və Quran və Sünnəyə müxalif olan fikxi rəyləri və bidətləri təmizləmişdir.

Bundan sonra şeyx tərbiyəyə keçmişdir. Əvvəl özünü, sonra ətrafını və bundan sonra da bu haqq yoluna dəvət edərək bütün insanları tərbiyələndirməyə başlamışdır. Onun dəvətinə dünyanın hər tərəfindən ümmətin ən xeyrli insanları olan alim və tələbələr dəstək vermişdir. Bundan sonra bütün dünyada elm əsasında dinin dirçəlməsi başlamışdır.

Ümumi xeyr üçün Ammandaki "Əl-Maktaba əl-İslamiyya" nəşriyyatı bu risaləni yaymaq qərarına gəlmişdir. Bu risalə şeyxin elm xəzinələrindəndir və dünyanın hər bir yerində yaşayan müsəlmanlar üçün böyük bir faydadır. Biz ümid edirik ki bu risaləyə görə şeyx ölümündən sonra Allah tərəfindən və Allahın izni ilə mükafatlandıralacaqdır.

Nəşriyyatçı<br>Amman, 4 zül-hiccə 1420 h.i.

# Təmizlənmə və Tərbiyə [4]

Həmd yalnız Allaha məxsusdur, ona həmd edir, ondan yardım və məğfirət diləyirik. Nəfslərimizin şərindən və pis əməllərimizdən Allaha sığınırıq. Allah kimi hidayətə yönəltmişsə, onu heç kəs azdıra bilməz, kimi də azdırmışsa, heç kəs onu hidayətə yönəldə bilməz. Mən şəhadət edirəm ki, Allahdan başqa ibadətə layiq məbud yoxdur, O, təkdir, şəriki də yoxdur və şəhadət edirəm ki, Muhammad ﷺ Onun qulu və elçisidir.

**"Ey iman gətirənlər! Allahdan layiqincə qorxun. Yalnız müsəlman olduğunuz halda (müsəlman kimi) ölün!"[5]**

**"Ey insanlar! Sizi tək bir şəxsdən (Adəmdən) xəlq edən, ondan zövcəsini (Həvvanı) yaradan və onlardan da bir çox kişi və qadınlar törədən Rəbbinizdən qorxun! (Adı ilə) bir-birinizdən (cürbəcür şeylər) istədiyiniz Allahdan, həmçinin qohumluq əlaqələrini kəsməkdən həzər edin! Şübhəsiz ki, Allah sizin üzərinizdə gözətçidir!"[6]**

**"Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz söyləyin! (Əgər belə etsəniz, Allah) əməllərinizi islah edər və günahlarınızı bağışlayar. Hər kəs Allaha və Peyğəmbərinə itaət etsə, böyük bir səadətə (Cənnətə) nail olar".[٧]**

Şübhəsiz ki, sözlərin ən doğrusu Allahın kəlamı, yolların ən xeyirlisi Muhammad ﷺ-in yoludur. Əməllərin ən pisi sonradan uydurulanlardır. Sonradan uydurulub dinə salınan hər bir əməl (iş) bir bidətdir, hər bir bidət isə bir zəlalətdir (sapmaqdır), hər bir zəlalət isə oddadır.

Bundan sonra:

Biz hamımız bilirik ki, bu gün biz çətin bir zamanda yaşayırıq. O zamanda ki, müsəlmanların vəziyyəti elə bir səviyyəyə çatıb ki, Allaha və Onun rəsuluna ﷺ iman gətirən kimsələr üçün bundanda pis vəziyyət

---

[4] Şeyxin söhbət açdıqı bu mövzu İslamda mühüm bir yer tutur. İslam ümmətinin gələcəyindən narahat olan və əndişələnən zamanımızın bir çox müsəlmanları, dinlərini və həyatlarını qorumaq üçün insanları birliyə çağırır. Lakin bu çağırışda onlar insanların korlanmış əqidələrinin düzəldilməsinə heç bir əhəmiyyət vermirlər və elə hesab edirlər ki, müxtəlif əqidələr əsasında adi bir birlik, onların problemlərinin həllidir. Öz tərəfdarlarının sayını artırmaq üçün onlar müxtəlif qaydalar qoyur. Məsələn: *"İxtilaf etdiyimiz məsələləri tərk edib, yalnız həmrəy olduğumuz məsələlər əsasında əməkdaşlıq edək"* və ya *"Bizləri birləşdirən bidəət, bizləri ayıran sünnədən daha xeyrlidir"* deyərək insanları birləştirməyə çalışırlar. Bu cür dəvət, zahirdə fəzilətli görünsədə, yanlışdır və dinin əsaslarına müxalifdir. İmam əl-Fudeyl ibn İyad demişdir: *"Nəfslər əsgərlərə bənzərdir. Onlardan biri birilərini tanıyanlar birləşir, tanımayanlar isə ayrılır. Sünnə əhlinin, munafiqlik etməyərək, bidət əhlinə kömək etməsi mümkün deyil*". Bax "Şarh usul itikad", 1/138.

Şeyx Əhməd ən-Nəcmi demişdir: *"Müsəlmanları əqidə birliyinə deyil, səf birliyinə çağıranlar, yaxşı işləri əmr edib pis işlərdən çəkindirmək dəvətini məhv etməyə çalışır. Bir müsəlmanın başqa müsəlmanın zəlalətində iştirak etməsi caiz deyil.... Rəbbimiz müxtəlif əqidələr əsasında birlikdən heç vaxt razı qalmayacaq. Zəlalət əhli ilə birlik etmək olmaz və bu şeytanın dəvətidir!"*. Bax "əl-Fataua əl-caliya" 70.

Bəziləri ümmətin fəlakət və bəlalarının İslamdan uzaq düşməsi ilə əlaqələndirərək, insanları dinə qayıtmağa dəvət edir. Lakin onlar da birinci növ insanlar kimi, insanların pozulmuş əqidələrinin təmizlənməsi və islah edilməsinə laqeyd yanaşırlar. Bu cür dəvət mənasız və faydasızdır. Bundan savayı o birliyə deyil, parçalanmağa aparan dəvətdir. Çünki İslam haqqında müxtəlif təsəvvürə malik olan iki insanın birləşməsi mümkün deyil. İslam birdir və onda ixtilafa yer yoxdur. Bu səbəbdən, insanları İslama dəvət etməkdən öncə, birinci növbədə əqidəni, ona aid edilən və ona adiyatı olmayan şeylərdən təmizləmək gərəkdir. Bundan sonra şəriət qanunlarını bir çox əsassız və Quran və Sünnəyə müxalif olan rəylərdən təmizləmək gərəkdir. Sünnədə (şərii) təmizliyin mahiyyəti haqqında bir çox rəvayətlər mövcuddur. Məsələn: ***"Bu elmi hər nəsildən adil şəxslər (alimlər) daşıyır. Onlar ondan (elmdən, dindən) ifrata varmış kimsələrin təhrifini, zəlalət əhlinin əlavələrini və cahillərin təfsirini uzaqlaşdırırlar"***. əl-Beyhəqi, 10/209; əl-Xatıb, 1/29. Bu hədis bir çox isnadla rəvəyət olunur və onlarda bir birini gücləndirir. Bu hədisin səhihliyini imam Əhməd, əl-Lələkai, hafiz İbn AbdulBarr, əl-Ukayli, İbn əl-Uazir, əl-Albani və AbdulQadir əl-Arnavut təsdiqləmişlər. Həmçinin peyğəmbər ﷺ buyurmuşdur: ***"Həqiqətən bu din qərib olaraq başlamış və qəribliyədə qayıdacaq. Məndən sonra mənim Sünnəmdən insanların korladıqı şeyləri qaydaya salanlara tuba olsun"***. At-Tirmizi, 2630; at-Tabarani, 9/76. İmam at-Tirmizi hədisin səhih olduqunu bildirmişdir. Bax "Silsilə as-sahiha", 273.

Beləliklə bu və buna bənzər hədislərdə, alimlərin dini müxtəlif təhriflərdən və səhv təfsirlərdən təmizlədiyini peyğəmbər ﷺ özü təsdiqləmişdir. Məhz bundan sonra, ümmətimizin sələflərinin tabe olduğu bu təmiz əsaslar üzərində müsəlmanları tərbiyələndirmək və birləşdirmək, və yalnız bunun üzərində İslama dəvət etmək lazımdır.

Şeyx əl-Albaninin bu məqaləsi, İslam dünyasının problemlərinə görə narahatlıq hissləri keçirən və ürəkdən müsəlmanların bu vəziyyətini düzəltmək istəyən kimsələr üçün gözəl bir nəsihətdir.

[5] Ali İmran, 102.

[6] An-Nisa, 1.

[7] Əl-Əhzab, 70-71.

ola bilməz. Bu da məhz müsəlmanların zəlil olması və əsarət altına düşməsidir. Başımıza gələnlərdən dolayı bizləri bürüyən hisslərimiz, həmçinin bütün müsəlman ölkələrinin zəlil olması, və bu ölkələrdə ictimai statusundan asılı olmayaraq bu zəlillikdən heç kimin xilas ola bilməməsi səbəbi ilə biz daima özümüz özümüzə sual veririk: bizləri ümidsiz bir hala salan bu dəhşətli vəziyyətimizin səbəbi nədir? Və bu zəlillik və bəladan qurtuluş yolu nədədir?

Biz bu vəziyyətdən qurtulmaq üçün irəli sürülən bir çox təkliflər eşidirik. Hər kəs öz fikrinə görə bu xəstəliyin mualicəsi üçün daha əlverişli əlaca işarə edir.

Lakin mən əminəm ki, bu sualın cavabını Sünnədə axtarmaq gərəkdir. Bir neçə səhih hədislərdə peyğəmbər ﷺ -in bu gün başımıza gələnlər haqda bəhs etdiyini tapa bilərik. Bununla belə o bizlərə bu problemlərin çözülməsi haqda da xəbər vermişdir. Peyğəmbər (s.a.v) demişdir: ***"Əgər siz ticarətdə ina*[8] *istifadə etsəniz və inək quyruğundan yapışsanız, və əkinlərinizlə qane olsanız və cihadı tərk etsəniz, Allah sizləri zəlil edər və dininizə qayıtmayana qədər o zəlilliyi üstünüzdən götürməz".***[9]

Bu hədisin qısa məzmunlu olduquna baxmayaraq biz onda bir çox müsəlmanların başına gələn xəstəliyin dəqiq təsvirini görürük. Bu hədisdə peyğəmbər ﷺ misal olaraq onun ümmətində yayıla biləcək iki xəstəliyə işarə etmişdir. Birincisi – şəriətin qadağan buyurduğu əməlləri müsəlmanların etmələri və bu səbəbdən onların müxtəlif hiylə və kələklərə bilərəkdən əl atmalarıdır. Buna peyğəmbər ﷺ-in ***"Əgər siz ticarətdə ina istifadə etsəniz"*** sözləri dəlalət edir. İslam hüquqşunaslığı (fikh) kitablarında "*əl-ina*" haqqında deyilir: *"Bu ticarət müqavilələrinin bir növüdür"*. Və bu hədisin bu növ ticarətin haram olduqunu açıq-aydın bildirməsinə baxmayaraq, bəzi alimlər, adi insanlarda həmçinin, bu növ ticarəti halal hesab edirlər.

Bu növ ticarət belədir: bir insan bir tacirdən mal alır, məsələn avtomobil. Onlar bu avtomobilin alıcı tərəfindən nisyə olaraq (yəni hissə-hissə ödəmək şərti ilə) müəyyən bir vaxt və müəyyən bir qiymətə, məsələn on minə, alınmasına dair müqavilə bağlayırlar. Sonra həmin alıcı tacirin yanına qayıdaraq həmin avtomobili ona daha az məbləğə təklif edir. Məsələn səkkiz minə, lakin nəğd pula. Tacir, yəni indi alıcı, nəğd məbləği ödəyərək həmin avtomobili onun satdıqı qiymətdən daha aşağı qiymətə alır. Beləliklə birinci alıcı nəğd olaraq səkkiz min pul əldə edir və onun on min borcu qalır, və bu iki qiymətin fərqi, yəni iki min - ribadır (sələm).

Ribanı qadağan edən Allahın ayə və peyğəmbər ﷺ(s.a.v)-in hədislərini eşidən hər bir müsəlman, hətta cüzi miqdarda riba olan ticarəti tərk etməlidir. Lakin bəzi insanlar "*əl-ina*" ticarətini caiz görərək, onun bir ticarət növü olduqunu söyləyirlər və söylədiklərinidə ümumi dəlillər ilə gücləndirirlər. Bu ümumi dəlillərdən biri Uca Allahın:

**"Allah alış-verişi halal, sələm (faiz) almağı isə haram (qadağan) etmişdir"**[10] kəlamıdır.

Onlar deyirlər: "Bu sadəcə alış-verişdir və bir kimsənin qiymət qaldırmasında və ya endirməsində problem yoxdur!".

Lakin nisyə on minə avtomobil alıb, onu səkkiz min nəğd pula satan alıcının yalnız bir məqsədi var idi – borc pul götürmək, yəni səkkiz min. Lakin, özünü müsəlman sanan[11] satıcının Allah rizası üçün ona borc verməyəcəyini başa düşəndən sonra, ikisidə hiylə işlədərək ticarət bəhanəsi ilə özlərinə ribanı halal etmişlər.

Lakin bilmək lazımdır ki, Müqəddəs Kitabı açıqlayan yalnız Allahın rəsuludur ﷺ. Uca Allah buyurur:

**"Sənə də Quranı nazil etdik ki, insanlara onlara göndəriləni (hökmləri, halal-haramı) izah edəsən".**[١٢]

Həmçinin Uca Allah onu vəsf edərək demişdir:

**"O möminlərlə şəfqətli, mərhəmətlidir!"**[13]

---

[8] Bu terminin izahı aşağıda zikr olunacaq.

[9] Bax "as-Silsilə as-sahih", 11.

[10] Əl-Bəqərə, 275.

[11] Burada şeyx, həmin insanın İslamının kamil olmadıqını bildirməkdədir. Buna dəlil peyğəmbər ﷺ-in: **"Müsəlman, başqalarına öz əli və dili ilə əziyyət verməyəndir"** sözləridir. Muslim, 41. Bu hədisdə söhbət İslamın tam olmasından gedir, çünki başqa müsəlmanlara əziyyət verən müsəlman kafir olmur. Şeyxin sözlərini məhz bu cür anlamaq lazımdır.

[12] An-Nəhl, 44.

[13] At-Tauba, 128.

O məhz bizə qarşı olan mərhəməti və şəfqətinə görə, şeytanın qurduğu tələləri bizlərə açıqlamış və bizləri, onun toruna düşməməyimiz üçün bir çox hədislərdə xəbərdar etmişdir. Bu hədislərdən biridə araşdırdığımız bu hədisdir. O buyurmuşdur: "*"Əgər siz ticarətdə ina istifadə etsəniz ..."*. Yəni özünüzə, müxtəlif hiyləgərliklər vasitəsi ilə və ticarət adı altında, və bu ticarəti əslində faizə borc götürmək üçün bəhanə edərək, Allahın və Onun rəsulunun (s.a.v) qadağan etdiyi şeyləri özünüzə halal etsəniz.

Bu hədisdə peyğəmbər (s.a.v), bu cür hiyləgərliklərə əl atmaqdan və Allahın haram buyurduqu şeyləri halal etməkdən bizləri çəkindirmişdir. Bu da, bir müsəlmanın, etdiyi bir işin günah olduqunu bilərək etməsindən daha şiddətlidir. Çünki etdiyi işin günah olduqunu bilən kimsənin bu işi haçansa tərk etməsinə ümid var. Lakin bir kimsənin etdiyi əməl ona hər hansı bir səbəbə görə, istər təvil istərsədə cahillik səbəbi ilə gözəl görsənərsə, və o etdiyi əməli pis görməzsə, onda Allaha tövbə etmək onun ağlına belə gəlməz. Bu səbəbdən insanlar üçün bir qadağanın halal edilməsi təhlükəsi, bir şeyin qadağan olmasında şübhə olmaması təhlükəsindən daha çoxdur. Beləliklə riba ilə məşğul olub, etdiyi əməlin riba olduqunu yəqinliklə bilən, ayədə[14] həmin insanın Allaha və Onun rəsuluna (s.a.v) müharibə elan etməsinin bildirildiyinə baxmayaraq, o, riba ilə məşğul olaraq öz qazancını halal hesab edən kimsədən daha yüngül vəziyyətdədir. Bu bir insanın spirtli içkilərin haram olduqunu bilərəkdən həmin içkilərdən istifadə etməsi kimidir. Belə halda onun haçansa tövbə edəcəyi ehtimalı var. Lakin spirtli içkiləri hərhansı bir səbəbə görə halal hesab edən kimsənin halı, birinci növ insanın halından pisdir, çünki o bu məsələni bu cür anlamaqdan əl çəkməyənə qədər, onun tövbə etməsini təsəvvür etmək olmur.[15]

Bu hədisdə, əvvəl zikr olunduqu kimi, peyğəmbər (s.a.v) haqqında bir misal olaraq söhbət açmışdır. Bununla o demək istəyirdi ki, əgər müsəlmanlar Allahın qadağan etdiyi əməllərdən hər hansı birini halallaşdıraraq yaysalar, Allah onları zəlil edər.[16]

Sonra peyğəmbər (s.a.v) bizə məlum olan şəriət qadağaları haqda söhbət açdı və dedi: ***"Əgər siz ticarətdə ina istifadə etsəniz və inək quyruğundan yapışsanız, və əkinlərinizlə qanə olsanız..."*** yəni Allahın dünya malı qazanmaqı əmr etdiyini bəhanə edərək, dünyanı sevib ona meyl etsəniz. Müsəlmanlar bu məsələdə ifrata uğrayaraq bütün vaxtlarını əkinlərə, malqaraya və başqa növ dünya malına sərf edirlər. Bu da, Uca Allahın onlara fərz buyurduqu haqqların tərk olunması ilə nəticələnir.[17] Tərk olunan haqqlardan birini misal çəkərək peyğəmbər ﷺ cihadı zikr edərək demişdir: ***"Əgər siz ticarətdə ina istifadə etsəniz və inək quyruğundan yapışsanız, və əkinlərinizlə qanə olsanız və cihadı tərk etsəniz, Allah sizləri zəlil edər və dininizə qayıtmayana qədər o zəlilliyi üstünüzdən götürməz".*** Gördüyünüz kimi bu hədisdə gələcəkdən xəbər verilir və biz təəssüflər olsun ki, zamanımızda, bizlərə vəd edilən, zəlilliyin baş verməsinin şahidiyik. Hədisdə zikr olunan günahları etdiyimizə görə bizləri bu xəstəliklər bürümüşdür – yəni zəlillik və acizlik xəstəliyi. Bu vəziyyətdən çıxmaq üçün, biz peyğəmbər ﷺ bizlərə göstərdiyi və yalnız onun vasitəsi ilə bu vəziyyətdən çıxmağın mümkün olduqunu bildirdiyi vasitəyə mütləq əl atmalıyıq.

---

[14] Şeyx əl-Albani Allahın:
**"Ey möminlər! Əgər, doğrudan da, iman gətirmişsinizsə, Allahdan qorxub sələmdən qalan məbləğdən (faizdən) vaz keçin! Əgər belə etməsəniz, o zaman Allaha və Onun peyğəmbərinə qarşı müharibəyə girişdiyinizi bilin!"** (əl-Bəqərə, 278-279) kəlməsini nəzərdə tutmuşdur.

[15] Bu bidətlərədə aiddir. Bidətlər günahlardan daha şiddətlidir. Günah edən kimsə etdiyi əməlin günah olduqunu bilir, lakin dinə yenilik gətirənlər isə etdiklərini günah saymırlar, əksinə ibadət və Allaha yaxınlıq kimi qəbul edirlər. Şeyxulislam İbn Teymiyya demişdir: *"İslam imamları, bidətlərin, insanın günah olduqunu bilərək etdiyi günahlardan daha şiddətli olduqunda həmrəydirlər"*. ("Məcmu fataua", 28/471). İbn əl-Qeyyim demişdir: *"İnsanların bir çoxu Allaha Onun haram etdiyi vasitələrlə ibadət edir və bu vasitələrin Allaha itaət və yaxınlıq olduqunu sanırlar. Bu cür insanların halı, günah edərək etdiyi əməlin günah olduqunu bilən kimsələrin halından daha şidətlidir"*. (Bax "İğasatul ləhvan", 2/181).

[16] Təəcüb doğuran o haldır ki, bu günümüzdə müsəlmanlar Allahdan izzət və qələbə arzulayaraq, riba ilə məşğul olurlar və özləri Allaha qarşı müharibə edirlər. İbn Abbas rəvayət edir ki: ***"Malını riba vsitəsi ilə qazanan kimsəyə Qiyamət günü deyiləcək: "Allahla müharibə etmək üçün silah götür"***. (at-Tabari, 3/127. Şeyx Əhməd Şakir hədisin səhih olduqunu bildirmişdir).

[17] Bu dünyaya sevgi və bağlılıq müsəlmanların zəifləməsinin ən ciddi səbəblərindəndir və bu haqda başqa bir mühüm hədisdə söz açılır. Sauban (r.a) rəvayət edir ki peyğəmbər (s.a.v) buyurmuşdur: ***"Qövmlərin sizin üzərinizə, yırtıcı heyvanların öz qurbanlarının üstünə tökülüşdükləri kimi, sizin üzərinizə tökülüşəcəyi zaman artıq yaxınlaşır"***. Ondan soruşdular: *"Bu bizim az olduqumuza görə olacaq?"* Peyğəmbər ﷺ dedi: ***"Xeyr! Əksinə siz çox olacaqsınız, lakin siz selin gətirdiyi çör-çöp kimi olacaqsınız (sizin çoxluqunuz bir fayda verməyəcək). Allahda sizin düşmənlərinizin qəlblərindən qorxunu qaldıracaq və sizin qəlblərinizə qorxu (vəhn) salacaqdır"***. Ondan: "*Vəhn nədir, ya rəsulUllah?*" deyə soruşdular. O***: "Dünyaya sevgi və ölümdən qorxmaqdır"*** deyə cavab verdi. (Abu Davud, 4297. Hədis səhihdir. Bax "Səhih əl-cəmi", 8183.

"*Dininizə qayıtmayana qədər*" sözlərini oxuyan və ya bu sözləri eşidən insanlardan bir çoxu, dinə qayıtmağı asan bir iş sayırlar.[18] Mənə gəlkdikdə isə, mən elə hesab edirəm ki, dinə qayıdışın, insanlar arasında deyildiyi kimi "çiyinlərin titrəməsinə" ehtiyacı var. Hamımız bilirik ki, bizim dinimiz, onun məqsədləri cəhətindən bir çox təhrif edilmə cəhdlərinə məruz qalmışdır. Bəzi məqamlarda isə bu həqiqətən alınmışdır. Bu təhriflərin bəzilərini bir çox insanlar bilir, bəziləri haqda isə çoxlarına məlum deyil. Bundan savayı, bir çox əqidə məsələləri var ki, onları insanlar dinə aid edir, lakin onların din ilə heç bir əlaqəsi yoxdur. Buna misal zikr etdiyimiz hədisdir: "*"Əgər siz ticarətdə ina istifadə etsəniz..."*. Axı hər bir insan bu növ ticarətin haram olduqunu bilmir. Bundan savayı islam ölkələrindəki bəzi alimlər bu növ ticarətin halal olması haqda fətvalar verir. Yəni sələmçiliyin qanuniləşdirilməsi üçün hiylə işlədərək ticarət etməyin halal olması. Bu da bir çox misallardan biridir və onlar haqda yalnız islam fikhinin tədqiqatçıları bilirlər.

Bu növ ticarətin haram olmasından əlavə, peyğəmbər ﷺ bu növ ticarətin tətbiq olunması müsəlmanların zəlilliyə sürüklənmə səbəbi olduqunu bildirmişdir. Bu da yuxarıda zikr etdiyimiz məsələlərdən biri kimidir, yəni dini anlayışın Quran və Sünnəyə müvafiq olaraq yenidən yoxlanması.

Həmçinin, bir çox alimlərin peyğəmbər (s.a.v)-dən rəvayət olunan hədislərdə haram buyurduqu şeyləri halallaşdırmaları haqda danışdıqda, biz həmin alimləri təhqir etmək və ləkələmək məqsədini daşımırıq. Bizim istədiyimiz, müsəlmanlara qarşı ixlaslı olmaq və onlara nəsihət etməkdır.[19] Biz, insanların öz dinlərini səhv və təhrif olunaraq başa düşmələrinin düzəldilməsi yolunda hətta alimlərlə əməkdaşlıq əlaqələri qurmaqa da hazırıq. Bu təklif daha çox fikh alimlərinə aiddir və bu səhvlərin hansı səbəblərə görə baş verməsi vacib deyil. Həmçinin aramızda:

**"Əgər bir iş barəsində mübahisə etsəniz, Allaha və qiyamət gününə inanırsınızsa, onu Allaha və Peyğəmbərə həvalə edin! Bu daha xeyirli və nəticə etibarilə daha yaxşıdır"**[20] ayəsini hakim götürməyi təklif edirik.

Fikh tədqiqatçıları bilir ki, "ina" ticarəti haqda, ticarətlə əlaqədar başqa məsələlərdə də olduqu kimi, alimlər arasında, nəyin ki günümüzdə, qədimdən bəri ixtilaflar mövcuddur. Axı bizim zamanın alimləri bu məsələlərlə üzləşdikdə nə edir? Mənə məlum olduqu kimi, onların əksər hissəsi ixtilafların mövcud olduqu faktını qəbul edərək hər şeyi olduqu kimi tərk edir.

Məhz burada biz deyirik: axı müsəlmanlar öz dinlərinə necə qayıtsınlar? Məhz dinə qayıdış, peyğəmbər ﷺ buyurduqu kimi zəlilliyin əlacıdır və əgər müsəlmanlar dinlərinə qayıdarlarsa, Allah onların üzərindən zəlilliyi qaldırar, əks halda isə dinlərinə qayıtmayana qədər onlar zəlil olaraq qalarlar: *"Əgər siz ticarətdə ina istifadə etsəniz və inək quyruğundan yapışsanız, və əkinlərinizlə qanə olsanız və cihadı tərk etsəniz, Allah sizləri zəlil edər və dininizə qayıtmayana qədər o zəlilliyi üstünüzdən götürməz"*.

---

[18] Bəzi insanlar "***dininizə qayıtmayana qədər***" sözlərini yalnız cihada qayıdış kimi, məhdudlaşdıraraq anlayır. Məgər hədisdə "cihada qayıtmayana qədər" kəlməsi işlənir?! Məgər din yalnız cihaddır?! Din kəlməsini peyğəmbər (s.a.v) özü Cəbrayılın hədisində açıqlamışdır, o sahabilərdən islam, iman və ixsan haqqında soruşmuşdur. Həmin hədisin şərhində hafiz İbn Rəcəb demişdir: "Bu hədis, bütün dini açıqlayan əzəmətli bir hədisdir. Çünki peyğəmbər ﷺ hədisin sonunda demişdir: ***"O Cəbrayıl idi və dininizi sizə öyrətmək üçün gəlmişdir"***. Peyğəmbər ﷺ islam, iman və ixsan dərəcələrini zikr etdikdən sonra, bütün bunları din adlandırmışdır. (Bax "Camiul ilumi vəl hikam", 1/43).

Bu zəlillyin səbəbi müsəlmanların özlərindədir. Bu haqda Uca Allah buyurur:

**"Sizə üz verən hər bir müsibət öz əllərinizlə qazandığınız günahların (etdiyiniz əməllərin) ucbatındandır! (Bütün bunlara baxmayaraq) Allah (günahlarınızın) çoxunu əfv edər"**. (aş-Şura, 30).

Şeyxulislam İbn Teymiyya demişdir: *"Əgər müsəlmanlar zəifdirlərsə və onların düşmənlərinin onlar üzərində üstünlükləri varsa, bu yalnız müsəlmanların etdiyi günahların ucbatındandır"*. (Bax "Cauabu-ssahih", 6/450).

Şeyx Muhammad-Amin aş-Şankıti müsəlmanların zəifliyi, az olduqları və hərbi hazırlıqılı olmadıqları haqda demişdir: *"Uca Allah Öz Kitabında bildirmişdir ki, əgər Onun qullarının qəlbləri ixlaslı olsa, O həmin qullarını onlardan qüvvətli kimsələr üzərində hakim və izzət sahibi edər. İxlasın nəticəsi odur ki, O müsəlmanlara onların hakim olmadıqı insanlar üzərində hakim edər. Bu zəifliyin əlacı Allaha qarşı ixlas və imanın gücüdür!"* (Bax "Əl-İslam dinu kamil", 33-34).

[19] Şeyxulislam İbn Teymiyya demişdir: *"Peyğəmbərlər günahdan və dində səhv etməkdən qorunmuşlar. Alimlər və hakimlər, onlardan fərqli olaraq bu şeylərdən qorunmamışlar. Bu səbəbdən, hətta alimlərin və hakimlərin səhvlərini biruzə vermək lazım olsada, tabe olunacaq haqqı bəyan etmək caiz, hətta vacibdir"*. (Bax "Məcmu fataua", 19/123).

Hafiz İbn Rəcəb demişdir: *"Allaha, Onun Kitabına və peyğəmbərinə ﷺ qarşı ixlaslı olmaqa (nasıha) gəldikdə, buraya alimlərin etdikləri daxildir. Onlar Quran və Sünnə vasitəsi ilə insanların zəlalətlərini inkar edir və açıqlayırlar. Alimlərin zəif rəylərinin rədd olunmasıda məhz bu qəbildəndir"*. (Bax "Camiul ilumi vəl hikam", 96).

[20] An-Nisa, 59.

Bu xəstəliyin yeganə əlacı dinə qayıdışdır. Lakin hamının və xüsusəndə alimlərin bildiyi kimi, bu dində bir çox ixtilaflar baş vermişdir. Bu ixtilaflar da, bəzi təbliğçilərin biruzə verdiyi kimi, yalnız ikinci növ[21] suallarda deyil. İxtilaf həmçinin əqidə məsələlərinidə yan keçməmşdir. Misal olaraq əşari və maturudiyyələrin ixtilaflarına, və onların mötəzilələrlə olan ixtilaflarına fikir verin. Biz hələ başqa firqələri zikr etmirik. Axı biz onların hamısını müsəlman sayırıq və peyğəmbər ﷺ in: "***Allah sizləri zəlil edər və dininizə qayıtmayana qədər o zəlilliyi üstünüzdən götürməz"*** sözləri onların hər birinə aiddir.

Bəs bizim qayıdacağımız din nədir?! Görəsən bu din hansısa bir firqə və ya partiya anlayışı çərçivəsindədir? Gəlin dörd məzhəb[22] arasında olan və icma ilə *əhli-sünnə*[23] məzhəbləri sayılan məzhəblərin ixtilafları ilə kifayətlənək.

Bu məzhəblərdən birinə üz tutsaq, orada bir neçə, hətta onlarla Sünnəyə müxalif hökmlər taparıq və onlardan bir neçəsi hətta Qurana da müxalifdir.

Ona görə mən elə hesab edirəm ki, İslama və ixlasla İslam ölkəsinin qurulmasına dəvət edən kimsələrin islah edilməyə səy göstərmələri, birinci növbədə özlərinə, sonrada İslam ümmətinə, peyğəmbər ﷺ-in nə gətirdiyini aydın etdikdən sonra başlamalıdır.[24]

Mən əminəm ki, və bu bütün alimlərin icmasıdır, dinin düzgün anlayışına qayıdış, yalnız Quran və Sünnənin tədbiqi ilə mümkündür. Bundan savayı, məzhəblərin imamları bizləri onları kor-koranə təqib etməkdən çəkindirmiş, və bu da onların fəzilətlərindəndir, onların fəzilətləri isə bildiyimiz kimi Allahdandır. Onlar istəmirdilər ki, insanlar Quran və Sünnənin şəriət əsası olduqunu unudaraq, onların sözlərini əsas götürsünlər.

İmamların bir mənaya gəldiyi, yəni: "Səhih hədis (sizə məlum olduqda) mənim məzhəbimdir"[25] sözlərinin hamısını zikr etməyə ehtiyac yoxdur.

İmamların bu sözləri, yəni onların rəylərini tərk edib səhih hədisə sarılmağı əmr etmələri, onların özlərinə, öz ümmətinə və ardıcıllarına nə qədər ixlaslı davranmalarına dair dəlil olaraq kifayətdir.

---

[21] Yəni fikhi məsələlərdə.

[22] Məzhəb – yəni İslam hüququ məktəbləridir. İslam tarixində bu cür məktəblər çox olub, lakin onlardan ən məhşurlar olanı dörd məzhəbdir: hənifilər, malikilər, şafiilər və hənbəlilər.

[23] Şeyxulislam İbn Teymiyya əhli-sünnə terminini açıqlayaraq demişdir: *"Onlar Allahın Kitabı və Onun peyğəmbərinin Sünnəsinə, həmçinin muhacir və ənsarlardan olan birinci nəsillərin müvafiq olduqlarına və onları ixlasla təqib edənlərin yoluna qəti şəkildə tabe olanlardır"*. "Məcmu əl-fataua", 2/375.

[24] Biz tez-tez dəvət ilə məşğul olan müsəlmanların elmsiz olduqunun şahidi oluruq. Biz xatırlatmaq istərdik ki, Allahın yoluna məntiq və ya əsilsiz xeyr vasitəsi ilə deyil, elm əsasında dəvət edilir! Uca Allah Öz peyğəmbəri (s.a.v)-ə buyurur:

﴾ "(Ya Rəsulum!) De: "Bu mənim (təbliğ, dəvət) yolumdur. Mən və mənə tabe olan (möminlər) açıq-aşkar bir dəlillə (insanları) Allaha çağırırıq". (Yusif, 108).

[25] Şeyx əl-Albani imamların sözlərini zikr etməmişdir, çünki onun muhazirəsində oturanlara bu sözlər məlum idi. Lakin biz bu imamların bəzi sözlərini zikr edək.

İmam Abu Hənifə an-Numan bin Sabit, Allah ona rəhmət etsin, demişdir: *"Əgər sizə səhih hədis məlum olsa, o mənim məzhəbimdir"*. (İbn Abidin "əl-Xaşiya", 1/63). O həmçinin demişdir: *"Bir kimsənin, mənim dəlilimi bilməyərək, sözlərimə arxalanaraq fətva vermək qadağandır"*. ("Rasmul-mufti", 1/29; "əl-Mizan", 1/55). O həmçinin demişdir: *"Əgər mənim dediyim Allahın Kitabına müxalif olarsa, mənim sözlərimi tərk edin və Allahın Kitabına tabe olun". Ondan: "Bəs sənin sözlərin peyğəmbər ﷺ-in hədisinə müxalif olsa necə?" deyə soruşduqda, o dedi: "Mənim sözlərimi tərk edib, peyğəmbər ﷺ-in hədisinə tabe olun". Ondan yenə: "Bəs sənin sözlərin peyğəmbər ﷺ-in sahabilərinin sözlərinə müxalif olsa necə?" O: "Mənim sözlərimi tərk edib, peyğəmbər ﷺ-in sahabilərinin dediklərinə tabe olun" cavabını verdi"*. (əl-Madhali ilə-Ssunnanil-kubra", 203-204 və "Fəthul-məcid", 241).

İmam Malik, Allah ona rəhmət etsin, demişdir*: " Həqiqətən mən bir insanam, hərdən haqqı deyib hərdən səhv edirəm. Mənim dediklərim haqda düşünün, Quran və Sünnəyə müvafiq olanı qəbul edib, müxalif olanı isə tərk edin"*. (İbn AbdulBarr "Cami əl-bəyan əl-ilm",2/32). O həmçinin demişdir: "*Peyğəmbər ﷺ-dən başqa hər bir insanın sözü qəbul olunduqu kimi, rədd olunada bilər".(*Bax "İrşad as-Salik", 227/1).

İmam aş-Şafi, Allah ona rəhmət etsin, demişdir: "*Bir insana peyğəmbər ﷺ-in bir buyuruqu məlum olduqdan sonra, başqa insanın sözlərinə görə onu tərk etməsinin caiz olmamasında alimlər həmrəydirlər"*.("İləm əl-muaqqiin", 2/361). O həmçinin buyurmuşdur: *"Mənim yazdığımda peyğəmbər ﷺ-in Sünnəsinə müxalif olan bir şey tapsanız, mənim sözlərimi tərk edib, peyğəmbər ﷺ-in Sünnəsinə sarılın"*. ( "Hilyat al-Auliya", 9/107).

İmam Əhməd ibn Hənbəl, Allah ona rəhmət etsin, demişdir: *"Nə məni, nə də Maliki, aş-Şafiini, əl-Auzaini, as-Saurini təqib etməyin, onların bəhrələndiyi yerdən sizdə bəhrələnin"*. (İbn Abi Xatim, Abu Nuaym və İbn Asakir, 15/9/2). O həmçinin demişdir: *"Peyğəmbər ﷺ-in hədisini inkar edən, özünü məhv olmaqa məhkum etmişdir". (*İbn əl-Cauzi, 182*).*

Beləliklə səhih hədislərə təbe olmaq prinsipi, və ya bunu imamlara tabeçilik adlandıraq, bizlərə Quran və Sünnəyə qayıdış yolunu açır.

Müxtəlif şəriət məktəblərinin, fakultələrin və başqa tədris ocaqlarının dərsliklərində mövcud olan materiallara dair bir neçə misal çəkək.[26]

Məzhəblərdən birində deyilir: *"İnsan namaza durduqda, əllərini öz bədəni uzununa salmalı və üst-üstə tutmamalıdır"*.[27]

Axi niyə?! Çünki bu məzhəb rəyidir!

Hədis alimləri, peyğəmbər ﷺ -in namaz əsnasında əllərini üst-üstə qoymadığına dair birdənə də olsa hədis, hətta zəif və ya uydurma hədis axtararaq səy göstərmişlər. Belə hədis yoxdur. Məgər bu rəy İslamdandır?

Sizlərdən bir kimsə deyə bilər: "Axı bu ikinci dərəcəli bir məsələdir", başqası isə hətta "Bu xırdalıqdır" deməyə cürət edə bilər. Lakin mən əminəm ki, peyğəmbər ﷺ -dən dinə aid rəvayətlər xırdalıq ola bilməz. Biz hesab edirik ki, peyğəmbər ﷺ tərəfindən din haqqında buyurulan hər bir şeyi biz din kimi qəbul etməli və şəriət dəlilləri ilə hesablaşmalıyıq. Yəni vacib buyurulan bir şey – vacib, müstəhəb buyurulan isə - müstəhəbdir. Dinə aid olan bir şeyi, həmin şeyin müstəhəb olduquna görə xırdalıq adlandırmaq İslam nöqtəyi nəzərindən yolverilməzdir. Bundan savayı bir şeyin qabıqını saxlamamış onun məğzini qoruyub saxlamaq mümkün deyil. Mən bunu onların dedikləri ilə sadəcə şərti razılıq verərək deyirəm.[28]

Namaz əsnasında əllərin bədən uzununa salınması misalına qayıdaq. Axı müsəlmanlar niyə bu əmələ davam edirlər? Sünnə kitablarında, peyğəmbər ﷺ-in namaz əsnasında bir əlini o biri əlinin üzərinə qoyması haqda bir çox hədislər rəvayət olunmuşdur. Verdiyimiz sualın yalnız bir cavabı var – bu kor-koranə məzhəbə tabe olmaqdır (*təqlid*) və məzhəb imamlarının "Səhih hədis mənim məzhbimdir" sözlərinə zidd çıxaraq, haqqa qarşı inadkarlıqdır.

Bəzi insanlar üçün bu misal kifayət olmaya bilər. Biz başqa bir misalda çəkərik. Fikh kitablarında günümüzə qədər alkoholun iki növ olduquna dair rəylərə rast gəlirik:

1 – Üzümdən istehsal olunan və çox və az miqdarda istifadəsi haram olan alkoqol;

2 – Arpa, qarğıdalı, xurma və sairə bunlar kimi ərzaqlardan alınan alkoqol. Bu növ alkoqol (həmin kitablarda qeyd olunduqu kimi) tam haram deyil, lakin bu alkoqolu insanı sərxoş edici miqdarda istifadə etmək haramdır. Axı niyə bu haqda günümüzə qədər yazırlar?! Bəzi insanlar yalnız öz imamlarının

---

[26] Məzhəbçilər tez-tez öz imamlarının sözlərini, bu sözlərin Sünnəyə müxalif olduqunu bilərək və gizlədərək, insanlara bəyan edirlər. Allah bizləri peyğəmbər ﷺ-in yolundan başqa bir yola tabe olmaqdan qorusun!

[27] Bu səhv rəyin tərəfdarları deyirlər ki, namaz əsnasında ki bu hərəkət Mədinə əhlinin hərəkətidir və hədisləri nəsx edir. Həqiqətən bu böyük bir zəlalətdir! Axı Uca Allah dini qorumaqı Özü Özünə vacib edib. Axı necə olur ki O, ləğv /mənsux/ olunmuş mətni qoruyub saxlamış, ləğv /nəsh/ edən mətni isə saxlamamışdır?!

[28] Şeyx günümüzdəki bir çox saxta İslam təbliğatçılarinin dediyi sözlərə işarə etməkdədir. Onlar dinin iki hissəyə, yəni əsas və xırdalıqlara bölündüyünü bildirirlər. Bu məntiqə əsasən yalnız dinin əsasını saxlamaq vacibdir. Onların xırdalıqlara aid etdiyi məsələlər isə, əhəmiyyətsizliyinə görə rədd oluna bilər. Lakin haqq olan odur ki, peyğəmbər ﷺ -dən rəvayət olunan hər bir şey qəbul olunaraq ciddi tətbiq olunmalıdır. Əgər o səhih olarsa, Uca Allahın

**"Peyğəmbər sizə nə verirsə, onu götürün; nəyi qadağan edirsə, ondan əl çəkin"**. (əl-Həşr, 7)

kəlməsinə əsaslanaraq, həmin hədisə əməl edilməlidir. Uca Allahın şəriətində əhəmiyyətsiz heç bir şey yoxdur. Lakin birincidərəcəli məsələlər var və lazımsız bir məsələ mövcud deyil, hətta söhbət ayaqyoluna getmək ədəbindən getsə belə. Uca Allah buyurur:

**"Həqiqətən, Biz sənə (məsuliyyəti) ağır bir kəlam (Quran) vəhy edəcəyik"**.

Peyğəmbər ﷺ buyurmuşdur: ***"Yaxşı əməllərdən heç birinə laqeyd yanaşmayın, hətta qardaşını gülərüz qarşılmaqada"***. Muslim, 2626.

İmam əl-İzz ibn Abdu-Ssalam demişdir: *"Allahın şəriətində əhəmiyyətsiz bir şey olduğunu söyləmək və həmin şeylərdə mövcud olan bir çox xeyr və neməti tərk etmək olmaz. Məgər itaət və imana dair əmr əhəmiyyətsiz ola bilərmi?! Bu cür ayırım yalnız səfeh, bədbəxt və əxlaqsız insan tərəfindən edilə bilər. Belə insanlara "Sənin şeyxinin şöhrəti əhəmiyyətsizdir" desək, onlar bu sözləri qəti sürətdə pisləyərlər, lakin özləri bu cür sözləri şəriətə dair işlədirlər! Şəriət yalnız Allahın Kitabı və Onun rəsulunun ﷺ Sünnəsidir. Belə sözləri söyləyən cahilə isə onun etdiyi günaha müvafiq olaraq töhmət vermək gərəkdir"*. Bax "əl-Fataua", 71-72.

Şeyx İbn Bazdan soruşdular: "Saqqalın qırxılması və geyimin topuqdan aşağı düşməsi əhəmiyyətsiz və mahiyyətsiz məsələlərdəndir" deyən kimsənin hökmü nədir?" Şeyx dedi: *"Bu cür sözlər olduqça təhlükəli və münkər sözlərdəndir! Dində əhəmiyyətsiz bir şey yoxdur. Dinin hər bir hökmü vacib və xeyrlidir. Bəli, dində birinci və ikinci dərəcəli məsələlər mövcuddur və saqqal və isbal məsələləri birinci dərəcəli məsələlərdən deyil. Lakin dinin hər hansı bir hökmünü əhəmiyyətsiz adlandırmaq caiz deyil. Biz narahatıq ki, bu insanın söylədikləri dinə istehza etməyə çevrilə bilər və bu səbəblə də o mürtəd ola bilər"*. Bax "Fataua uləma əl-baladi əl-haram", 321.

rəylərinə (ictihad)[29] arxanalaraq etiraz edə bilərlər! Biz hamımız, məzhəbimizdən asılı olmayaraq kitablarda peyğəmbər ﷺ-in: ***"Çox miqdarda sərxoş edici, az miqdarda da qadağandır"***[30] sözlərini oxuyuruq. O ﷺ həmçinin buyurmuşdur: ***"Sərxoş edici hər bir şey – alkoqoldur, alkoqolun isə hər bir növü haramdır"***.[31]

Axı bu təhlükəli sözlər indiyə qədər niyə qalıb?! Axı bu sözlər fasiqliyə yaxınlaşmış və ya fasiqlik içində olan insanları, üzümdən istehsal olunmayan alkoqolun istifadə edilməsinə sövq edir. Bu da bir imamın məhz belə dediyinə görə baş vermişdir?![32]

Bizlər də həmin imamı böyük alim kimi qəbul edirik. Lakin biz sizdən fərqli olaraq unutmuruq ki, həmin alim səhvlərdən məsum deyil, ancaq onun rəyinin fanatikləri özlərini bu böyük həqiqəti unutmuş kimi göstərərək, öz imamlarının rəyini müdafiə etməyə çalışırlar. Başqaları isə bu rəylərdən istifadə edərək müsəlmanlar arasında alkoqolu yaymaqdadırlar. Üçüncülər isə bu rəyi deyil, öz imamlarını müdafiə edirlər.

Sizə yəgin məlumdur ki, "əl-Arabi" jurnalında, müsəlmanların üzümdən istehsal olunan alkoqoldan başqa bütün alkoholun istifadəsinin caiz olduqu rəyini müdafiə edən bir məqalə çıxçışdır. Mən bildiyimə görə günümüzdəki alkoqollu içkilərin əksər hissəsi üzümdən hazırlanmır. Onlar isə "Sərxoş olana qədər içmə" sözlərini dəlil olaraq gətirirlər.

Lakin hamıya məlumdur ki, bu mümkün olan bir iş deyil. Çünki birinci damcı ikincisinə, üçüncüsü isə dördüncüsünə səbəb olur. Həmçinin sərxoş edici miqdarıda təyin etmək mümkün deyil, bu da nəticədə sərxoşluqa gətirib çıxarır.

Bunu nəzərə alaraq, məni narahat edən, peyğəmbər (s.a.v)-in səhih hədislərinə müxalif olan bu rəylərin fikh kitablarında mövcudluğudur. Axı bu səhih hədislər bu cür rəyləri tam olaraq dəf edir.

Axı niyə biz, öz mənfəətlərini güdən belə insanlara, "sərxoş olana qədər içmə, az iç çox içmə" deyərək müsəlmanlara spirtli içkilərin caiz olduqunu söyləyən, öz məqalələrini yayan və onlardan alınan vəsaitə özlərinə imarətlər tikən insanlara şərait yaradırıq?!

Bəlkə onun niyyəti yaxşıdır, və o: "Ey insanlar! Dini çətinləşdirməyin. Əgər imamlardan biri bu içkilərin caiz olduqunu bilidirirsə, biz nəyə görə onları qadağan etməliyik?" deyən insanların yolu ilə getmək istəyir? Bəlkədə bu cahil belə zənn edir. Lakin bu məqaləyə rəddiyə yazmış Şamın fəzilətli alimlərindən birinin özünü itirməsini necə başa düşək? Əvvəl o bu məqalənin müəllifini dəstəkləyənlərin tərəfini tutur, sonra isə həmin müəllifin və onun arxalandığı kimsələrin rəylərini rədd edən hədisləri (onlardan bəzilərini biz zikr etdik) zikr edir.

Bu mütərəddidliyin və qətiyyətsizliyin səbəbi nədir? Bunun səbəbi, həmin insanın öz imamının sözlərinin qüsursuz olduqunu göstərməyə çalışmasıdır, çünki bu rəy müsəlman alimlərinin bir rəyidir və həmin alim cahil olduquna görə və ya öz nəfsinə uyaraq bunu deməmişdir. Mən bununla tamami ilə razıyam və deyirəm: o cahil olduquna görə və ya öz nəfsinə uyaraq bunu deməmişdir, bəs onda o cahillik və nəfsə uymaqdan uzaq olaraq öz ictihadında səhvə yol verməkdən məsumdur?! Biz hamımız: "Xeyr" deyə cavab verəciyik. Biz hamımız peyğəmbər ﷺ-in: ***"Əgər hakim bir şəriət hökmü çıxardırsa və onun çıxartdıqı hökm səhihdirsə, o ikiqat savab qazanmış olur. Əgər o səy göstərərək hökm edib səhv edərsə, o bir savab qazanmış olur"***[33] hədisini xatırlayırıq. Axı biz muctəhid-alimin bir savab qazandıqını qəbul edib, onun səhv etdiyini niyə inkar edirik? Bəzi insanlara "filan alim səhv etdi" demək çox çətin gəlir.

Biz isə deyirik: belə ifratçılıq nəyə lazımdır? Nəyə görə biz bir imamın səhv etdiyini və iki savab əvəzinə bir savab qazandıqını deməkdən qorxuruq? Axı niyə biz bunu özümüzə prinsip olaraq götürmürük və yuxarıda zikr etdiyimiz kimi, bəzi ikinci dərəcəli məsələlərə tətbiq etmirik?

Beləliklə, əgər siz həmin alimin məqalə müəllifinə yazdığı rəddiyəni oxusanız, nəticədə həmin məqalə müəəlifinin səhvini açıqlayan bir şey tapmazsınız, çünki o bu məsələdə müsəlmanların imamlarından birinin rəyini əsas olaraq götürmüşdür. Axı bu imamın ardıcıllarından bəziləri dəqiq tədqiqatlardan və şərii dəlillərin açıqlanmasından sonra, bu rəyi, imamın səy göstərərək səhv etməsi və səyinə görə bir savab qazanması hədisinə aid edərək, zəif saymış və ondan imtina etmişlər. Onlar səhih hədislərə tabe olmuşlar. Belə halda, niyə biz zikr etdiyimiz məqalədə imamın səhv etməsini və bunun müqabilində bir

---

[29] İctihad - hər hansı bir məsələ barəsində şərii hökmün çıxarılması.

[30] Abu Davud, 3681; at-Tirmizi, 1925; İbn Məcəh, 3393. Bax "əl-İrva", 2375.

[31] Muslim, 2003.

[32] Alimlərin sözləri özü özündə dəlil ola bilməz. Bu haqda şeyxulislam İbn Teymiyya necədə gözəl demişdir: *"Həqiqətən alimlərin rəyləri şərii dəlillərə əsaslanmalıdır, şərii hökmlər isə onların sözlərinə əsaslanmaz"*. Bax "Məcmu fataua", 26/202.

[33] Əl-Buxari, 7352; Muslim, 1716.

savab qazanması haqqında bir kəlmə də olsun tapmırıq? Həmçinin, məqalə müəllifin ünvanınada, imamın sözlərinə əsaslanaraq sünnəyə müxalif olduğuna görə, bir məzəmmət tapmırıq!

Cavab belədir ki, bizim qəlblərimiz kordur, çünki biz bir imama, Allahın bizlərə vacib buyurmadığı tərzdə ehtiram bəsləyirik. Biz peyğəmbər ﷺ: ***"Böyüklərə hörmət, kiçiklərə rəhmət və alimlərimizə ehtiramla yanaşmayan bizdən deyil"***[34] sözlərinə iman edirik.

Peyğəmbər (s.a.v) alimlərin haqlarını verməyə bizləri sövq etmişdir. Məgər alimin insanlar tərəfindən peyğəmbər ﷺ -dən daha artıq ehtiram edilməsinə və bu cür əməllər ilə, ona məsumluq aid edilməsinə, haqqı var? Axı əməllər deyilənlərdən daha artığını göstərir.[35]

Bir alimə ehtiram bəsləmək, heç də onun sözlərini peyğəmbər ﷺ-in sözlərindən daha uca tutmaq deyil. Biz onun sözlərini peyğəmbər (s.a.v)-in sözlərindən üstün tuta bilmərik.

Yuxarıda zikr etdiyimiz, bizim aramızda yayılan əməllərdən bir misaldır və bu cür əməllər günümüzdə Quran və Sünnə (elm) əhli tərəfindən qınanmır və inkar edilmir. Mən bu haqda dərc olunmuş əsərlərimdən birində söhbət açmışam. Bu risalədən oxucu yalnız bir nəticə çıxara bilərdi – sözün kökü peyğəmbər ﷺ-in: ***"Çox miqdarda sərxoş edici, az miqdarda da qadağandır"***[36] sözlərindədir. Bu səbədən "əl-Arabi" məcmuasının yazıçısı səhv etmişdir, və onu dəstəkləyən alim də səhv etmişdir. Biz heç kimə şəxsiqərəzliklə yanaşmırıq. Səhv səhvdir, küfr küfrdür, istər böyük istər kiçik, istər kişi istər qadın tərəfindən edilsə belə. Səhv onun sahibinin kimliyindən asılı olmayaraq səhv olaraq qalır.

Həmçinin misal olaraq, kəbin haqqında yayılmış bir rəyi, yəni günümüzə qədər qanunvericilikdə "Vətəndaşlıq hüquqları" adını daşıyan bir qanunu gətirmək olar. Hamı bilir ki, bu günümüzdə bizlərə şəriətə zidd olan konstitusiyanı yeritmişlər. Lakin buna baxmayaraq, bu rəy şərii bir qanun kimi təqdim edilir. Bu rəy, peyğəmbər ﷺ-in açıq-aydın: ***"Vəlisiz nigah bağlayan qadının nigahı səhih (qanuni) deyil, səhih deyil, səhih deyil"***[37] sözlərinə müxalif olmasına baxmayaraq, həddi buluqa çatmış müsəlman qadının vəli olmadan nigah bağlamasına icazə verir.

Hərdən insanlar məndən soruşur: "Bu hədisi başa düşən məgər tək sənsən?" Mən isə onlara deyirəm: "Bu hədisi, ərəb dilində imam sayılan imam aş-Şafii də məhz belə başa düşmüşdür. Bu da albaniyalı bir kimsənin rəyi deyil. Lakin bu albaniyalı, bu hədisi tapmış və onu Abdul-Mutallib qövmündən qureyşli imamın necə başa düşdüyünüdə tapmışdır".

Niyə biz hədis ilə qüvvətlənmiş bu səhih rəyi, alimin rəyinə görə tərk etdik? Bəli, biz imamların ictihadı ilə hesablaşırıq. Lakin, ictihad yalnız Quran və Sünnəyə zidd olmadığı halda qiymətli sayılır. Hamımız usulu-fikh kitablarında: "Quran və Sünnədən açıq-aydın bir mətn olduqda, (ağıla əsaslanan) rəy öz təsirini itirir" qaydasını oxuyuruq. Və ya "Açıq-aydın mətn olduqda, ictihada yer yoxdur" sözləridə bu qəbildəndir. Bu qanunlar bu elmin alimləri tərəfindən hamılıqla təsdiq olunmuşdur. Belə olduğu halda, biz niyə Sünnəyə uyğun olan qaydaları tərk edib, inadkarlıqla ona müxalif olan rəylərdən yapışırıq?!

Əgər biz doğrudan da peyğəmbər ﷺ-in ***"dininizə qayıtmayana qədər"*** sözlərinin qəsd etdiyi mualicəyə başlamaq isətyiriksə, bir suala cavab vermək lazımdır: məgər dinə qayıdış yalnız sözdə olmalıdır, yoxsa əməl və etiqadda?

Müsəlmanlardan bir çoxu Lə iləhə illəLlah Muhammadan rəsulUllah kəlməsini söyləyir. Lakin onlar bu şəhadətin vacib tələblərini yerinə yetirmirlər. Bu da çox ətraflı mövzudur. Zamanımızdakı müsəlmanlar, hətta dəvət ilə məşğul olanlar bu şəhadətin mənasını izah etmirlər. Bir çox cavan müsəlman və islam yazıçıları, bu şəhadətin, Allahdan başqa hakim (hökm çıxaran) yoxdur anlamına gəlməsini bildirmişlər.

---

[34] "Sahihul-cami", 5443.

[35] Salim bin Abdullah rəvəyət edir: ***"Bir dəfə İbn Ömər ؓ ilə məsciddə oturmuşdum. Ona Şam əhlindən olan bir insan yaxınlaşaraq, həccdən qabaq ümrə edilməsi (həcc at-tamattu) haqda soruşdu. İbn Ömər ؓ dedi: "Bu çox gözəl bir işdir". Həmin insan soruşdu: "Hətta sənin atan (Ömər ibn əl-Xattab) bunu qadağan etdiyinə baxmayaraq?" İbn Ömər dedi: "Vay sənin halına! Əgər mənim atamın qadağan etdiyini, peyğəmbər ﷺ özü edib və insanlara etməyi buyurubsa, sən atamı təqib edəcəksən, yoxsa peyğəmbər ﷺ-i?" Həmin insan: "Peyğəmbər ﷺ-i" deyə cavab verdi"***. Əhməd, 5700; Abu Yalə 3/1317. İsnadın səhih olduğunu imam an-Navavi təsdiq etmişdir.

Hafiz İbn Rəcəb demişdir: *"Əgər peyğəmbər (s.a.v)-in hər hansı bir əmri bir insana çatarsa, bu əmrin, kiminsə nüfuzlu rəyinə müxalif olmağına baxmayaraq, insanlara bəyan edərək o əmrə tabe olmağa dəvət etmək həmin kimsəyə vacib olar. Çünki peyğəmbər ﷺ-in əmri, hər hansı bir nüfuzlu şəxsin rəyindən, ehtirama və təqib edilməyə daha layiqdir"*. "İğazul-hamam", 93.

Hafiz İbn Kəsir demişdir: *"İnsanların əməl və sözləri, peyğəmbər ﷺ-in əməl və sözləri ilə muqayisə edilir və onun əməl və sözlərinə uyğun gələn – qəbul olunur, uyğun gəlməyən isə, həmin əməl və söz sahibinin kimliyindən asılı olmayaraq rədd olunur"*. Bax "Təfsir İbn Kəsir", 3/415.

[36] Abu Davud, 3681; at-Tirmizi, 1925; İbn Məcəh, 3393. Bax "əl-İrva", 2375.

[37] "əl-İrva", 1840.

Bəli, mən açıq bəyan etmək istəyirəm ki, müsəlman cavanları və islam yazıçıları bu həqiqət baxışına xususi əhəmiyyət verirlər, yəni hökmlərin müəyyən edilməsi yalnız Uca Allahın haqqıdır. Həmçinin günümüzdə mövcud olan problemlərin çözülməsi üçün əsas olaraq qəbul olunan və bizlərə yeridilən konstitusiyalar, hakimliyin yalnız Allaha məxsus olması prinsipinə ziddir. Lakin mən, həmin yazıçılardan bir çoxunun öz fikirlərinə tam sadiq olmadıqlarını görürəm, yəni hökmlərin müəyyən olması Allaha məxsusdur, və Allahın qərarı – Quran və Sünnənin qərarıdır.

Sizin görüşünüzə əsasən, kafirdən ziddiyyətli bir hökm gələrsə, o Allahın qanununa ziddir, elə deyilmi? Bəs öz ictihadında səhv edən alimin rəyi Allahın qanununa zidd deyil?

Burada bir fərq olmamasında mən əminəm. Quran və Sünnəyə zidd olan hər hansı bir rəy, həmin rəy sahibinin kimliyindən asılı olmayaraq müsəlman tərəfindən tərk olunmalıdır. Lakin, burada küfr söz söyləyən və söylədiyi küfrə görə əbədiyyən cəhənnəmə düşən kafir və səhv edən və səhvinə görə savab qazanan müsəlman arasında fərq var. Artıq bu haqda biz yuxarıda, səhih hədisə əsaslanaraq söhbət açmışdıq.

Beləliklə dinə qayıdış, yalnız onun dərk olunuşu üçün yol təyin edilməsi cəhtindən sonra mümkündür. Bu da "əl-fikh əl-muqaran" (qiyas fikhi) adını daşıyan fikhin həyata keçirilməsi ilə mümkün olan bir işdir.[38] Bu fikhin öyrənilməsi vacibdir. Şəriət təhsili alan hər bir kəs bu fikhi öyrənməlidir.

İslam ölkəsinin qurulmasına dəvət edərkən biz bu dövlətin dəqiq qanun və kodeksinin olmasını qəbul edirik. Bəs bu qanunlar hansı məzhəb üzərində qurulacaqdır və hansı məzhəbə əsaslanaraq bu qanunlar açıqlanacaqdır?

Zamanımızın bəzi islam xadimləri, gələcək islam ölkəsinin konstitusiyasının əsaslanacağı qanunların tərtibinə başlamışlar. Biz də bu qanunların yuxarıda qeyd etdiyimiz "əl-fikh əl-muqaran" fikhinin tədqiqi üzərində əsaslanmadığını bilirik və ya bizim terminologiyamızda "Quran və Sünnə" üzərində. Bu xadimlərdən biri, hər hansı bir məzhəbi tədqiq etdikdən sonra, həmin məzhəbin rəyini, yazdığı qanunnamənin bir çox fəsillərində qeyd etmişdir. O öz kitabını islam ölkəsi qurulduqda bu ölkənin konstitusiyası kimi təsdiq etmək üçün hazırlamışdır. Bu da bu yaxınlarda baş verəcəkdir. Həqiqətə gəldikdə isə, bu insan, spirtli içkilərin halal olması haqda yazan insan kimi, yeni bir şey gətirməmişdir. İslam ölkəsinin qanunnaməsi kimi yazılan bu kitab haqqında ən azı onu demək olar ki, bu qanunnamə özündə Sünnə ilə gücləndirilən başqa bir imamın səhih rəyinə zidd olan zəif rəyi əks etdirir. Mən qeyd etdiyim məsələ "Müsəlmanın zimmə[39] əhlindən bir kimsəni öldürməsi və bunun müqabilində həmin müsəlmanın öldürülməsi" babında qeyd olunmuşdur. Bu rəy İslam fikhində mövcuddur. Lakin başqa bir rəydə mövcuddur: "Əgər bir müsəlman zimmə əhlindən bir kimsəni öldürərsə, qisas olaraq müsəlman öldürülməz". Bu rəy imam əl-Buxarinin nəql etdiyi peyğəmbər ﷺ-in: ***"Müsəlman kafirə görə öldürülməz"***[40] sözlərinə əsaslanır.

Axı bu alimi, peyğəmbər ﷺ-in sözlərinə müxalif olan, bir müsəlmanın kafirə görə edam edilməsi qanununu islam qanunnaməsinə daxil etməyə nə vadar etmişdir?![41]

Mən əminəm ki, bu rəyə səbəb olan, həmin insanın bu məzhəbin fikhini tədqiq etməsi, onun üzərində boya başa çatması və bu məzhəbə təqib etməyi özünə va başqalarına vacib bilməsidir. Məgər bunu dinə qayıdış adlandırmaq olar?

Din, *"bir müsəlman kafirə görə öldürülməz"* deyir, lakin məzhəb isə *"öldürülər"* deyir. Həmçinin bu yazıçı həmin bənddə deyir: *"Əgər müsəlman zimmini səhv edərək öldürərsə, bunun kəffarəsi nədir? Bunun kəffarəsi bir müsəlman öldürmə kəffərəsinə bənzərdir"*. Bu onun əsaslandıqı məzhəb konstitusiyasının rəyidir. Lakin peyğəmbər ﷺ demişdir: ***"Kafirin öldürülməsinə görə ödənən kəffarə, mömininin öldürülməsi halında ödənən kəffarənin yarısı qədərdir"***.[42]

Belə halda konstitusiya kimi biz nəyi qəbul etməliyik, peyğəmbər (s.a.v)-in sözlərini, yoxsa ona zidd olan məzhəb rəyini? Belə misallar olduqca çoxdur.

---

[38] Yəni bir məsələ haqda bütün məzhəblərin rəylərinin və dəlillərinin açıqlanması.

[39] Əhli-zimmə - İslam ölkəsində yaşayaraq, cizyə ödəyən nəsrani və ya yəhudilərə deyilir.

[40] Bax "əl-İrva", 2209.

[41] Burada İslam ölkəsində bir kafirin öldürülməsi haqda mövcud olan şəriət qərarı haqqında söhbət açılır. Bir kafir öldürmüş müsəlmanın etdiyi əmələ görə edam edilməməsi, həmin əməlin caiz olmasına dəlalət etmir. Müsəlmanlarla müqavilədə olan kafirin öldürülməsi böyük günahlardandır. İmam əl-Buxari öz "Səhih" əsərinə "Zimmini öldürən kimsənin günahı" adlı bir fəsil əlavə etmiş və peyğəmbər ﷺ-dən***: "Kafiri (müsəlmanlarla müqavilədə olan) öldürən kimsə Cənnətin qoxusunu hiss etməyəcək. Həqiqətən Cənnətin qoxusu qırx il məsafəyə qədər yayılır"***. əl-Buxari, 6914. Bu öz oğlunu öldürmüş atanın öldürülməməsinə bənzərdir. Bu bir şəriət hökmüdür, lakin bu o demək deyil ki, valideynə öz övladını öldürmək caizdir.

[42] Bax "Sahih əl-cəmi", 3391.

Beləliklə, dinə qayıdış – Quran və Sünnəyə qayıdış deməkdir, çünki alimlərin icmasına görə din məhz bu iki şeydə tamamlanmışdır. Yalnız bu iki şeyə tabe olmaq zəlalətdən qorunmaqın təminatıdır. Peyğəmbər ﷺ buyurmuşdur: ***"Mən sizləri zəlalətdən qoruyan iki şey saxladım, - Allahın Kitabını və mənim Sünnəmi, və onlar hovuzun yanında mənə təqdim olunmayana qədər bir birindən ayrılmaz".***[43]

Biz bu misalları yalnız, elm əhlinin dini məhz bu cür başa düşülməsinə qayıdışın, yəni Quran və Sünnəyə müvafiq olaraq başa düşülməsinə qayıdışın vacib və zəruri olmasını bildirmək üçün qeyd etdik ki, müsəlmanlar Allah tərəfindən bir şeyin halal olduğunu zənn edərək, haram olan bir şeyi halallaşdırmasınlar.

Dinə qayıdış məsələsində sözlərimi yekunlaşdıraraq demək istərdim ki, əgər biz Alahın bizləri izzətləndirilməsini, zəlillikdən azad etməsini və düşmənlərimizə qarşı mübarizədə bizlərə kömək göstərməsini istəyiriksə, bunun üçün problemin sadəcə dərk olunması kifayət deyil. Bu problem də, dinin yanlış başa düşülməsi və şəriət dəlillərini təhrif olunmuş müxtəlif rəylərdən azad edilməsi zəruriliyidir. Həmçinin bir mühüm məsələ də mövcuddur, bu da əməllərdir. Elm əməllərin edilməsi üçün bir vasitədir. Əgər bir insan təmiz və hər bir zəlalətdən azad elmə malikdirsə, lakin bu elm əsasında əməl etmirsə, aydındır ki, onun bu elminin bəhrəsi olmaz. Ona görə elm ardınca əməlin edilməsi vacibdir.[44]

Bu gün elm sahibi olan hər kəs, özünü yeni müsəlman nəslini tərbiyələndirməyə həsr etməlidir, Quran və Sünnə əsasında yaşayan müsəlman nəsli. İnsanları öz əcdadlarından mənimsədikləri batil dini anlayışlar üzərində tərk etmək bizlərə caiz deyil. Bu anlayışlardan bir çoxu icma ilə batil qəbul olunmuş, digərləri barəsində isə, ictihad çərçivəsində ixtilaf var, lakin Sünnəyə müxalif olan ictihad çərçivəsində.

Yalnız bu təmizlik və dinin dirçəliş metodunu anladıqdan sonra, bu səhih elm üzərində yeni nəsilin tərbiyələndirilməsinə başlamaq lazımdır. Bu tərbiyələndirilmənin bəhrəsində saf islam cəmiyyətinin sonra isə islam ölkəsinin qurulması olacaq. Mən əminəm ki, zikr etdiyimiz bu iki ilkin mərhələsiz – yəni səhih elm və onun üzərində tərbiyə - islam ölkəsinin və ya islam idarəçiliyinin qurulması qeyri mümkündür.

Bu mərhələlərin İslamın dirçəlişi işində nə qədər mühüm rolu olduğuna dair bir misal gətirək. Şamda, İslam dirçəlişini və bu əsasda yeni müsəlman nəslin tərbiyələnməsini arzulayan bir qrup müsəlman mövcuddur. Onlar bu yolda hətta bir qədər səy göstərməkdədirlər. Lakin biz hiss edirik ki, onların rəhbərlərindən bir çoxlarının, bizim zikr etdiyimiz yola əsaslanaraq İslamı müfəssəl surətdə tədqiq etmələrinə ehtiyacları var. Biz, cümə gününün axşamı həmin xadimlərin islam gənclərini Allaha ibadətə dəvət etdiklərinin şahidi oluruq. Bəli bu dəvət Allaha itaət və ibadət dəvətidir. Bu çox gözəl bir dəvətdir. Lakin onlar Sünnəni tədqiq etmədikləri və onu başa düşməyə çalışmadıqları üçün, və onları uşaqlıqdan bunun əsasında tərbiyələndirən nəslə rast gəlmədikləri səbəbi ilə, Sünnə ilə ziddiyətə düşmüşlər. Biz peyğəmbər ﷺ-in: ***"Cümə gününün gecəsini, başqa gecələri tərk edərək (gecə) namazı üçün seçməyin, və cümə gününü, başqa günləri tərk edərək oruc üçün seçməyin"***[45] sözlərini nəzərdə tuturuq.

Axı peyğəmbər ﷺ bizlərə bu əməli qadağan edən halda biz cümə gününün gecəsini ibadət üçün necə ayıra bilərik? Cavab: bunun səbəbi cahillikdir. Bəs elm əhli bu əməlin haram olduğunu bildirərək, həmin cahillyi niyə aradan qaldırmır?!

Başqa biriliəri isə musiqi dinləməyi özlərinə halal bilirlər, çünki o bütün televiziya kanallarında mövcuddur. Axı niyə heç kim onlara musiqi alətlərinin və musiqinin peyğəmbər ﷺ tərəfindən haram edildiyini bildirmir və oyun, boşboğazlıq və musiqi ilə vaxtlarını keçirən insanların meymun və donuzlara çevrilmələri haqda bir söz demir?[46] Bu nəsil halal və haram olan bir şeylər üzərində tərbiyələnməmişdir. Özlərinə bəraət qazandırmaq üçün bu insanlar musiqinin halal olması haqda risalə yazan İbn Həzm kimi bəzi alimlərin rəylərini dəlil olaraq gətirirlər.[47] Bu rəy onlar arasında, onların nəfslərinə uyğun olduqu

---

[43] Bax "Sahih əl-cəmi", 2937.

[44] Uca Allah bu haqda buyurur:

**"Hər hansı bir tayfa öz tövrünü (nəfsində olanları) dəyişmədikcə (pozmadıqca), Allah da onun tövrünü (onda olanları, onun əhvalını) dəyişməz".** (ar-Raad, 11).

Səid ibn Cubeyr, Həsən əl-Basri və Sufyan as-Sauri demişlər: *"Sözlər əməlsiz qəbul olunmaz. Sözlər və əməllər səhih niyətsiz qəbul olunmaz. Sözlər, əməllər və niyyətlər Sünnəyə müvafiq olmayana qədər qəbul olunmaz".* əl-Ləlakai "İtikadu əhli-sunna", 1/57; İbn əl-Cauzi "Talbisu İblis", 9; az-Zəhəbi "Mizanu itidal", 1/90.

[45] Muslim 1144. Yəni cümə gününü, namaz və oruc üçün seçmək caiz deyil. Əgər həmin ibadətlər başqa günlər edilərsə bu istisnadır, belə halda cümə günlərində onları yerinə yetirmək caizdir.

[46] As-silsilə as-sahih, 91.

[47] Haqdan kənara çıxan bəzi imamlar istisna olmaqla, əvvəlki imamlardan heç biri musuqini halal saymamışdır. Musiqinin haram olmasına birmənalı səhih hədislər dəlildir. Belə ki, peyğəmbər ﷺ demişdir: ***"Mənim ümmətimdə ipəyi, şərabı və musiqi alətlərini halal hesab edən insanlar peyda olacaq".*** əl-Buxari, 5590. Həmçinin Ənəs ﷺ rəvayət edir ki, peyğəmbər ﷺ

üçün çox qısa bir zamanda yayılmışdır. Onların rəhbərlərindən və özlərini ümmətin islahçılarından sayan bəziləri deyirlər: *"Əgər bu imam belə rəy çıxarıbsa, biz bu məsələdə onu təqib edə bilərik və musuqi dinləyə bilərik; xüsusəndə musiqini hamı dinlədiyi zaman"*.

Bəs onda hanı Sünnə?! Həqiqətən Sünnə unudulub!

Əgər zəlillikdən qurtuluş səbəbini, peyğəmbər ﷺ dinə qayıdışda olduğunu bildiribsə, onda biz onu Quran və Sünnəyə müvafiq olan alim rəylərinə əsaslanaraq düzgün anlamalı və məhz bunun üzərində yeni nəsli tərbiyələndirməliyik. Bu da bütün müsəlmanların gileyləndiyi problemlərin çözülmə yoludur.

Bir ifadədən mən xoşlanıram və bu ifadə yuxarıda qeyd etdiyim sözlərə nəticə olacaq. Bu bir zamanlar dəvət ilə məşğul olan kimsənin sözləridir. Mən elə hesab edirəm ki bu ifadə göylərdən nazil olan bir möcüzəyə bənzərdir. O demişdir: *"İslam ölkəsini öz qəlblərinizdə qurun ki, o yer üzündə də qurulsun"*.

Biz özümüzü öz İslamımız, öz dinimiz əsasında islah etməliyik. Bu da mən qeyd etdiyim kimi cahillik ilə həyata keçirilə bilməz. Lakin bu elm əsasında edilməli və yer üzündə İslam ölkəsi yaradılacağına qədər davam etməlidir.[48]

Sözümün sonunda, bu əzəmətli işi tətbiq etməyə imkanı olan hər bir insana, Quran və Sünnənin bəhs etdiyi həqiqi İslamın yayılması yolunda alimlərlə əməkdaşlıq etməyi və bunun üzərində yeni nəsil yetişdirməyi nəsihət edirəm.

Bu bir xatırlatma idi, çünki xatırlatma möminlərə fayda verir.[49]

*Assalamu aleykum ua rahmatullahi ua barakatuh*

---

demişdir: ***"Bu dünya və axirətdə iki səs lənətlənmişdir: sevinc anında tütək və müsibət anında isə ağı səsləri"***. əl-Bazzar, ad-Dıyə əl-Maqdisi. Hafizlər əl-Munziri və əl-Xaysami bu hədisin bütün rəvilərinin güvənilən olduqunu söyləmişlər. Bax "at-Tarğib ua-ttarhib" 87, "Məcmau-zzavaid", 3/13. Şeyx əl-Albani "as-Silsilə as-sahih" 427 əsərində bu hədisin həsən olduqunu bildirmişdir.

Həmçinin İbn Abbas, İbn Ömər və Qeys ibn Ubadadan, Allah onlardan razı olsun, rəvəyət olunur ki, peyğəmbər ﷺ buyurmuşdur: ***"Həqiqətən Allah sizlərə şərabı, qumarı və təbili haram etmişdir. Uyuşdurucu hər bir şey haramdır"***. Əhməd, 2/165; əl-Beyhəqi, 10/222. Hədisin səhih olduqunu imam Əhməd təsdiqləmişdir. Bax əl-Həlləlin "Amr bil maruf" əsəri, 26; İbn Həcərin "ət-Təlxiz" əsəri 4/202 və şeyx əl-Albaninin "Taxrimu alətu-ttar" əsəri, 46.

Ənəs ؓ rəvayət edir ki peyğəmbər ﷺ buyurmuşdur: ***"Qiyamətə yaxın (torpaq) çökmələri, düşmələr və eybəcərliklər artacaq. Bu insanların şərab içdikləri, muğənni qadınları aldıqları və musiqi alətlərində çaldıqları zaman olacaq"***. İbn Abu ad-Dunya, 1/153. Hədis səhihdir. Bax "as-Silsilə asahiha", 6/236.

[48] Şeyxin bu sözləri, günümüzdəki xavariclərin iddia etdiyi kimi yer üzündə islam məkanının olmadıqına dəlalət etmir. Şeyx əl-Albani yalnız Quran və Sünnə vasitəsi ilə idarə olunan həqiqi, tam İslam ölkəsini qəsd edir.

[49] Uca Allah bu haqda buyurur:

**"Sən (onlara) xatırlad, çünki xatırlatmaq möminlərə fayda verir"**. (az-Zariyat, 55).

"الدعوة السلفية"
(٤)

# التصفية والتربية

## وحاجة المسلمين إليهما

للشيخ

**محمد ناصرالدين الألباني**

الإصدار الأول

الإعداد : الموقع «إلى الإسلام»